# "Kənd təsərrüfatı ili" aqrar sektorda yeniliklərlə zəngin oldu

## Azərbaycanda cari ilin "Kənd təsərrüfatı ili" elan olunması bu sahənin qeyri-neft sektoru içərisində ən çox inkişaf etdirilməsi vacib olan sahələrdən olduğunu bir daha sübut etdi



**Ölkə iqtisadiyyatının sürətli inkişafı, insanların rifahının günü-gündən yaxşılaşması, paytaxt və bölgələrin simasının nəzərəçarpacaq dərəcədə yeniləşməsi həyata keçirilən düzgün və düşünülmüş siyasətin məntiqi nəticəsidir. Azərbaycan qeyri-neft sektorunun prioritetliyinə əsaslanan inkişaf yolu seçməklə yanaşı, aqrar sahənin yüksəlişinə də xüsusi diqqət yetirir. Əhalinin böyük bir qisminin gəlirlərinin məhz aqrar bölmədə formalaşdığından bu sahə böyük əhəmiyyət kəsb edir.**

Həyata keçirilən tədbirlər nəticəsində bu gün ölkəmiz bir sıra əsas ərzaq məhsulları ilə özünü təmin edir. Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatlar nəticəsində kənd təsərrüfatı, aqrar-sənaye kompleksi uğurla inkişaf edir. Aqrar sahənin intensiv inkişafı və bu əsasda ölkənin etibarlı ərzaq təhlükəsizliyinə nail olunması iqtisadiyyatın şaxələndirilməsi strategiyasının prioritet istiqamətlərindən birini təşkil edir və dövlət bu istiqamətdə müasir dövrün tələblərinə cavab verən səmərəli tədbirlərin həyata keçirilməsini daim diqqət mərkəzində saxlayır. Yola saldığımız 2015-ci ildə kənd təsərrüfatının inkişafı da diqqət mərkəzində saxlanıldı. Belə ki, aqrar sektorda dövlət dəstəyi tədbirləri davam etdirildi, istehsalçılara əlavə güzəştlər verildi. Məhz Prezident İlham Əliyevin 2015-ci ilin Azərbaycanda "Kənd təsərrüfatı ili" elan olunması respublikamızda aqrar sektorun inkişafına güclü siyasi iradə nümayiş etdirilməsinin daha bir təsdiqidir. Cənab İlham Əliyevin ötən 2015-ci il ərzində imzaladığı qanun, fərman və sərəncamlar aqrar sahədə sahibkarlar üçün əlverişli fəaliyyət mühitinin yaradılmasına, fermerlərin dövlət qayğısı ilə əhatə olunmasına, onların gəlirinin artmasına və rəqabətə - davamlı kənd təsərrüfatı məhsulları istehsalının dinamik artımına yönəlmişdir.

"Kənd təsərrüfatı ili"ndə qarşıya qoyulan vəzifələr kənd təsərrüfatının inkişafına yeni təkan vermək və onun modernləşdirilməsini sürətləndirmək, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmaq, həmçinin bu sahəyə dövlətin inzibati və maliyyə resurslarını səmərəli şəkildə cəlb etmək, ölkəmizin aqrar potensialını geniş təbliğ etmək oldu.

"Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 mart 2015-ci il tarixli Sərəncamında Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Dövlət Toxum Fondu yaradılması və fondun fəaliyyətinin təmin edilməsi, habelə yüksək məhsuldar toxumların istehsalının və tədarükünün həyata keçirilməsi üçün dövlət büdcəsindən 10 milyon manat vəsait ayrılması nəzərdə tutulmuşdur. Toxum Fondunun yaradılması fermerlərin yüksək məhsuldar bitki toxumlarına olan tələbatını yerli istehsal hesabına ödəməyə imkan verəcək və bu da öz növbəsində məhsuldarlığın artımına və ərzaq təhlükəsizliyinin təmin olunmasına müsbət təsir göstərəcək.

"Kənd təsərrüfatı ili"ndə ölkə Prezidenti tərəfindən "Bitkiçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2015-ci ilin aprelin 15-də imzaladığı Sərəncamı da kənd təsərrüfatı məhsullarının istehsalçılarına hər hektar əkin sahəsinin becərilməsində və çoxillik əkmələrin aparılmasında istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımın həcminin 25 faiz artırılması nəzərdə tutulmuşdu. Bu Sərəncam kənd təsərrüfatı məhsulları istehsalçılarını stimullaşdırmağa güclü təkan verməklə yanaşı, növbəti illərdə təkrar əkinlərin sahəsinin genişlənməsinə və torpaqlardan daha səmərəli istifadə etməyə də müsbət təsir edəcək. Bunun nəticəsidir ki, cari ilin məhsulu üçün 1 dekabr 2015-ci il tarixinə 13734 hektar, yəni keçən ilə nisbətən 8,4 dəfə çox sahədə təkrar əkin aparılmışdır.

Xatırlatmaq yerinə düşər ki, dövlətimizin başçısı aqrar elmin keyfiyyətcə yeni mərhələyə keçirilməsinin təmin edilməsi, elmi-tədqiqat müəssisələrinin maddi-texniki bazasının müasirləşdirilməsi ilə bağlı 2015-ci ilin aprelin 17-də "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi sistemində fəaliyyət göstərən elmi tədqiqat müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncam da imzaladı.

Bu il aqrar sahədə yadda qalan hadisələrdən biri də heyvandarlığın məhsuldarlığının artırılması istiqamətində həyata keçirilən işlər oldu. Belə ki, ölkə Prezidentinin bu ilin 19 avqust tarixində imzaladığı "Heyvandarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq ölkəyə iribuynuzlu damazlıq heyvanların idxalının və heyvandarlıqla məşğul olan kənd təsərrüfatı məhsulları istehsalçılarına 50 faiz güzəştlə lizinq yolu ilə satışının həyata keçirilməsi üçün Prezidentin Ehtiyat Fondundan "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə 15 milyon manat ayrılmışdır. Əhalinin heyvandarlıq məhsulları ilə təminatının daha da yaxşılaşdırılması, yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması və bu sahəyə marağın gücləndirilməsi üçün "Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 avqust 2015-ci il tarixli Sərəncamı ilə süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə 100 manat həcmində subsidiya müəyyən edilmişdir.

Bundan başqa, kənd təsərrüfatının digər sahələrinin inkişaf etdirilməsi məqsədilə ölkə Prezidenti İlham Əliyevin 21 avqust 2015-ci il tarixli "Heyvandarlığın maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında" Sərəncamı ilə Kənd Təsərrüfatı Nazirliyinə 5,8 milyon manat büdcə vəsaiti, o cümlədən Respublika Süni Mayalanma Mərkəzinin müasir tələblərə uyğun yenidən qurulması üzrə işlərin başa çatdırılması və mərkəzin zəruri avadanlıqlarla təchiz edilməsi üçün 2,8 milyon manat, Qarabağ atı cinsinin inkişaf etdirilməsi üzrə həyata keçirilən tədbirlərin yekunlaşdırılması üçün 1,5 milyon manat və Dilbaz atı cinsinin inkişaf etdirilməsi ilə bağlı tədbirlərin görülməsi üçün 1,5 milyon manat ayrılmışdır.

Nazirlər Kabinetinin bu ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində əldə edilən uğurlara toxunaraq bildirmişdir: "Bu il "Kənd təsərrüfatı ili" elan edilmişdir. Şadam ki, "Kənd təsərrüfatı ili"ndə kənd təsərrüfatımız da 6,7 faiz artıb. Ölkədə aparılan islahatlar, eyni zamanda, dövlət tərəfindən fermerlərə verilən dəstək, subsidiyalar, texnika təminatı və bütövlükdə dövlət siyasəti, bax, bu vəziyyəti yaradır. İri fermer təsərrüfatlarının yaradılması da, xüsusilə, taxılçılıq sahəsində böyük dönüşə səbəb olub."

Son illərdə fermerlərə də maliyyə dəstəyi gücləndirilib. Təkcə yola saldığımız ilin ötən 9 ayı ərzində 4400-dən çox sahibkara 166 milyon manat güzəştli kredit ayrılıb. Həmin kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 10 mindən çox yeni iş yerinin açılmasına imkan yaradıb. İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilən vəsaitlərin əsas hissəsi də kənd təsərrüfatına yönəldilir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin 9 ayı ərzində payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) orta hesabla hər hektardan əldə edilmiş məhsul 7,6 sentner artaraq 30,4 sentner təşkil edib. Bundan əlavə, məhsulu toplanmış 28,5 min hektar dən üçün qarğıdalı sahəsindən 168,2 min ton məhsul götürülüb. Məhsul yığımı başlanandan oktyabr ayının 1-dək sahələrdən 822,3 min ton və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 13,4 min ton çox kartof, 1172,7 min ton (47,7 min ton çox) tərəvəz, 481,5 min ton (41,6 min ton çox) bostan məhsulları, 533,4 min ton (1000 ton çox) meyvə və giləmeyvə, 111,7 min ton (5,6 min ton çox) üzüm, 556,5 ton (152,3 ton çox) yaşıl çay yarpağı, 40,8 min ton (11,7 min ton çox) şəkər çuğunduru, 2819,6 ton (585,9 ton çox) tütün yarpağı yığılıb. Sahələrdən 14,3 min ton pambıq yığılaraq tədarük müəssisələrinə təhvil verilib, 18,8 min ton dən üçün günəbaxan toplanılıb. Oktyabrın 1-nə olan məlumata görə, təsərrüfatlarda 2703,9 min baş qaramal və 8743,4 min baş qoyun və keçi mövcud olub. 2015-ci il yanvarın 1-i ilə müqayisədə qaramal 6,4 min baş, qoyun və keçi isə 98 min baş artıb. 2015-ci ilin yanvar-sentyabr aylarında 331,4 min ton, yaxud əvvəlki ilin müvafiq dövrünə nisbətən 2 faiz çox diri çəkidə ət, 1469,5 min ton (3,8 faiz çox) süd, 1157,4 milyon ədəd yumurta, 16,5 min ton (1,6 faiz çox) yun istehsal olunub. Ümumilikdə isə bu dövrdə bitkiçilik məhsulları istehsalının 10,4 faiz, heyvandarlıq məhsulları istehsalının 2,5 faiz artması nəticəsində kənd təsərrüfatının ümumi məhsulu üzrə artım tempi əvvəlki ilin yanvar-sentyabr ayları ilə müqayisədə 6,7 faiz təşkil edib.

Bu ilin Azərbaycanda "Kənd təsərrüfatı ili" elan olunması aqrar sahənin qeyri-neft sektoru içərisində ən çox inkişaf etdirilməsi vacib olan sahələrdən olduğunu bir daha sübut etdi. Həmçinin Azərbaycanın fərqli iqlim şəraitinə malik olması ölkədə kənd təsərrüfatının xüsusi önəm daşımasına imkan yaratdı. Nəticədə bu istiqamətdə görülən işlər qarşıdakı illərdə kənd təsərrüfatının daha da inkişaf etdirilməsinə şərait yaratdı.

Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Bu baxımdan, dövlət başçısının respublikada əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı məqsədilə vaxtaşırı verdiyi tapşırıqlar, tövsiyələr, imzaladığı Fərman və sərəncamlar, Dövlət Proqramları bundan sonra da Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin edilməsində müstəsna əhəmiyyət kəsb edəcək və qarşıya qoyulmuş vəzifələr uğurla icra olunacaq.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***